**UOT- 321.01** **Səh. (18-32)**
**DOİ:** https://doi.org/10.59849/2219-7370.2024.30.18

# MİLLİ İDEOLOGİYA: ŞƏRTLƏR-TƏLƏBLƏR, İDEYA-İDEALLAR, PRİNSİPLƏR

**Əbülhəsən Abbasov**
fəlsəfə elmləri doktoru, professor,
AMEA Fəlsəfə və Sosiologiya
İnstitutunun baş elmi işçisi
abulhasan.abbasov@mail.ru

**Xülasə**

Məqalədə milli ideologiya fenomeni onun Azərbaycan dövlətçiliyinin və vətəndaş cəmiyyətinin inkişafındakı rolu araşdırılır. İlk dəfə olaraq milli dövlətçilik ideologiyasının mühüm şərtləri, aparıcı ideya-idealları və prinsipləri bütöv bir sistem halında oxuculara təqdim edilir. Millətləşmə, türkçülük, azərbaycançılıq, suverenlik, respublikaçılıq problemlərinə xüsusi diqqət yetirilir, müasir dövrdə bu məfhumlara postneoklassik fəlsəfə və epistemologiya mövqeyindən yanaşılmanın zəruriliyi əsaslandırılır. Tədqiqatın kateqorial aparatını, qnoseoloji zəminlərini, metodoloji yanaşma və üsullarını, aksioloji dəyərlər sistemini, əsasən, müəllifin son onilliklər ərzində işləyib hazırladığı və postneoklassik epistemologiyanın məzmun-mahiyyətində aparıcı yer tutan idraki arsenal, təhlil və ümumiləşdirmə prinsipləri təşkil edir. Sistemli yanaşma, sinergizm, müqayisəli təhlil, tarixi konkretlik, səbəbiyyət, yumşaq hesablamalar, ehtimallıq və emercentlik kimi prinsiplərə, gələcəklə bağlı ideya və çağırışlara xüsusi önəm verilir.

**Açar sözlər:** milli ideologiya, dövlətçilik, suverenlik, respublikaçılıq, türkçülük, azərbaycançılıq, sinergizm, modernləşmə, konstruktivizm.

# NATIONAL IDEOLOGY: CONDITIONS-REQUIREMENTS, IDEAS-IDEALS, PRINCIPLES

**Abulhasan Abbasov**
DSc., Professor,
abulhasan.abbasov@mail.ru

**Summary**

The article explores the phenomenon of national ideology, its role in the development of statehood and civil society. For the first time, the defining conditions-requirements, leading ideas-ideals and principles of the national state ideology are presented to the readers as a holistic system. Special attention is paid to the problems of national construction, Turkism, Azerbaijanism, sovereignty, republicanism. The necessity of approaching and analyzing these concepts from the positions of postneoclassical philosophy and epistemology is substantiated. The categorical apparatus, gnoseological foundations, methodological approaches and techniques, the system of axiological values of the research constitute, mainly, the cognitive arsenal, the principles of analysis and generalization, deve-

loped by the author and occupying a leading place in the essence-content of post-neoclassical epistemology. Special priority is given to such principles and methods as systemic approach, synergetics, comparative analysis, historical concreteness, causality, soft computing, probability and emergence, as well as ideas and challenges related to views into the future.

**Keywords:** national ideology, statehood, sovereignty, republicanism, Turkism, Azerbaijanism, synergetics, modernization, constructivism.

## НАЦИОНАЛЬНАЯ ИДЕОЛОГИЯ: УСЛОВИЯ-ТРЕБОВАНИЯ, ИДЕИ-ИДЕАЛЫ, ПРИНЦИПЫ

**Абульгасан Аббасов**
доктор философских наук, профессор,
abulhasan.abbasov@mail.ru

**Аннотация**

В статье рассматриваются вопросы, связанные с необходимостью разработки национальной идеологии, её роль в развитии государственности и гражданского общества. Обосновывается необходимость формирования национальной идеологии в качестве ведущей мотивационной установки единства государства, единства нации и культуры как основы государственной целостности. Особое внимание уделяется проблемам национального строительства, тюркизма, азербайджанства, суверенитета, республиканизма. Подход и анализ этих понятий обосновывается с позиции постнеоклассической философии и эпистемологии. Особую приоритетность автор придает таким принципам и методам как: системный подход, синергизм, сравнительный анализ, историческая конкретность, причинность, мягкие вычисления, вероятностность и эмерджентность.

**Ключевые слова:** национальная идеология, государственная идеология, суверенитет, республиканизм, тюркизм, азербайджанство, синергизм, модернизация, конструктивизм

## Giriş

Hər bir dövlət üçün dövrün çağırışlarını qarşılaya bilən, ölkənin və xalqın etibarlı gələcəyinin qərarlaşmasında xüsusi yeri və rolu olan milli strategiyanın müstəsna əhəmiyyəti danılmazdır. Yaxın, orta və uzaq perspektivlər, aparıcı istiqamət və vəzifələr, prioritet təşkil edən məsələlər məhz dövlətin milli strategiyasında öz ifadəsini tapır. Milli strategiyanın kamilliyi, məntiqi olaraq ictimai meqatrendin optimallığını şərtləndirir. Sual olunur, milli strategiyanın necəliyini determinə edən başlıca fenomen nədir? Bu, milli ideologiyadır. Məzmun-mahiyyətindən və təyinatından çıxış edərək onu milli-dövlətçilik ideologiyası da adlandıra bilərik. Söhbət elə bir siyasi dövlət ideologiyasından gedir ki, realistliyi ilə, mükəmməl elmi-nəzəri təminatı və aşıladığı fəaliyyət fəlsəfəsi ilə (praksiologiyası ilə) zəmanənin tələb və çağırışlarını qarşılaya bilir, ümummill konsolidasiya zəminində milli maraqların gerçəkləşməsinə dəstək verir və vahid ölkə daxilində etnomilli, dini, mədəni müxtəlifliyi dəyərləndirməklə ondan xoşməramlı qurucu, sağlamlaşdırıcı istiqamətdə istifadəyə münbit şərait yaradır, ifrat millətçiliyin, şovinizmin, patogen təriqətçiliyin, böyüməkdə olan yeni nəslin təfəkkür və həyat tərzini pozmağa yönəlmiş “subkultural” axın və meyllərin qarşısını alır. İctimai meqatrendin başlıca siyasi-mənəvi təminatçısı olan bu ideologiya özünün

müsbət rolunu, əhəmiyyətini tarixən etibar qazanmış milli-mədəni adət-ənənə və dəyərləri müasirləşmə adı ilə mənfur (daxili və xarici) qüvvələr tərəfindən cəmiyyətə sırıdılan, hopdurulan zövq və dəblərin badına vermir, tarixin mürəkkəb, dramatizmlərlə dolu inkişaf mərhələlərində, necə deyərlər, sərt dönəmlərdə xalqın, millətin, cəmiyyət və dövlətin vahidliyini və bütövlüyünü, qarşılıqlı fayda verən daxili sinergetik ocaqlarını, birgəyaşayış mədəniyyətini və gücünü saxlamaqda xüsusi önəm, missiya daşıyır **(1).** Milli ideologiya, gələcəyə baxış kontekstində dəyərləndirdikdə bir ideya-ideallar sistemidir. (yaradıcı inkişafda varisliklə novatorluğu üzvi surətdə uzlaşdıran sistemdir.) Tarixi və sosial zamanla hesablaşma, ümumbəşəri inkişafla şərtlənmə, invariantlıqla yanaşı variativliklə səciyyələnmə bu sistemin mövcudluq üsuludur. Sözsüz ki, biz dövlətin milli ideologiyasını birləşdirici-bütövləşdirici bir fenomen, varlıq kimi də dəyərləndirə bilərik **(2)**.

Milli dövlətçilik ideologiyasının yuxarıda qabartdığım bu funksional əlamətlər, əslində dövlət siyasətinin əsaslarını, mahiyyətini, səciyyəvi xüsusiyyətlərini xarakterizə edir. Bu əlamətlər sistemi dövlət siyasətinin və idarəetmənin aparıcı prinsiplərində, praktiki fəlsəfəsində ifadə olunur və gerçəkləşir. Ümumiyyətlə, konkret ideya və prinsiplər, vahid üzvi sistem halında götürdükdə ideologiyanın həlledici məzmununu və mahiyyətini təşkil edir. Təbii ki, mahiyyətcə mütərəqqi olan ideya və prinsiplər mütərəqqi siyasət və idarəetmə fəlsəfəsinin mövcudluğunu şərtləndirir, dövlətçiliyin etibarlı inkişafını təmin edir, onun həyatverici kamilliyini artırır. Mükəmməl ideoloji sistem sayəsində siyasət və idarəetmə fəlsəfəsi, bütün maneələrə, təhdid və çoxsaylı problemlərin ağır yükünə baxmayaraq öz bəhrəsini veririr. Əminliklə deyə bilərik ki, müasir Azərbaycanın ərazi bütüvlüyünün və suverenliyinin, konstitusiya quruluşunun bərpa olunmasında və möhkəmlənməsində, ölkəmizin daxili və xarici təhlükəsizlik mühitinin yaxşılaşmasında, strateji, iqtisadi və hərbi gücünün artmasında dəyişən qlobal və regional şəraitdə dövlətin uğurlu fəaliyyət göstərə bilməsində və milli maraqlarımızın layiqincə qorunmasında məhz həmin fəaliyyət fəlsəfəsi müstəsna rol oynamışdır. Həm nəzəri, həm praktiki müstəvidə ciddi pozitivlərin generasiyasına qadir belə siyasi fəsəfə, gələcəyə baxış bucağından onu dəyərləndirsək müstəsna əhəmiyyət daşıyır. O, bu kontekstdə cəmiyyət və dövlətin, milli varlığın perspektiv tələbatlarının ödənilməsi istiqamətində mühüm amilə, hətta deyərdim, determinanta çevirilir.

Milli dövlətçilik ideologiyası ilə determinə olunan siyasət və idarəetmə fəlsəfəsinin təqdirəlayiq bir mühüm səciyyəsi, necə deyərlər, bir gözəlliyi də ondan ibarətdir ki, zaman axınında sadəcə, bir invariant praksioloji sistem kimi özünü mütləq mənada təkrarlamır. O, daşıdığı məzmun-mahiyyətin gələcəyə kopiyalanmış bəsit transferi deyil – yaradıcı, evristik, innovasiyalı davamıdır! Bu keyfiyyət idarəetmə fəlsəfəsinin mütərəqqi dinamikasını və yaşarlığını təmin edir. Gələcəyə aparan yolda onun əzamətli, məhsuldar, çevik olmasını şərtləndirir. Dövlətçiliyin, onun nəzəriyyə və praktikasının özəl keyfiyyətlərindən biri, bəlkə də, ən vacibi elə budur! Bu xüsusiyyətin olması zəmanə ilə ayaqlaşan, bəşəri çağırışları qarşılaya bilən, özündə yeniləşmə və konstruktivləşmə çeşmələri, "TAM" naminə qarşılıqlı fayda verən sinergetik ocaqları gücləndirən siyasət və iadarəetmə fəlsəfəsinin mövcudluğu deməkdir. Elə bir fəlsəfənin ki, ictimai praktikada möhtəşəmliyini, məhsuldar novatorçuluğunu, həqiqi orijinallığını sübut edə bilir, mükəmməl siyasi mədəniyyət və təcrübə sistemi kimi fəaliyyət göstərir, uğur və nailiyyətlərə yol açır. Belə sistem, bir zəngin mənbə olaraq ölkə əhalisi və dünya xalqları tərəfindən təqdir edilir, cazibədar və sövqedici olur. Həm indiki, həm də gələcək nəsillər üçün ruhverici mənbəyə, ibrət bulağına çevirilir.

Dövlətin idarəetmə fəlsəfəsi, həm də bir mədəniyyət sistemi kimi qeyd olunmalıdır. Və təkcə ona görə yox ki, dövlət idarəetmə strukturları mədəniyyət sahəsində böyük işlərə imza atıb, təqdirəlayiq nəticələr ortaya qoyurlar. Bu səpkidə bizim bir çox dəyərli alimlərimiz aktual problem və vəzifələri göstərməklə müvafiq yazılarla obyektiv mənzərəni işıqlandırmışlar, mədəniyyət sahəsində son onilliklər ərzində görülən işlər haqqında oxuculara ətraflı məlu-

mat çatdırmışlar **(3, 4)**. Qabartmaq istədiyim başqa şeydir. Əsas sual budur: müasir Azərbaycanda mədəni inkişafın aparıcı özülləri, məna və məzmun daşıyıcıları nə olmuşdur? Mahiyyətverici inteqrativ gücün keyfiyyət elementləri, onların səciyyəsi nədən ibarətdir? Məncə, bu tip suallar prinsipial əhəmiyyətlidir və onların cavablandırılması zəruridir. Dərin və ətraflı fəlsəfi təhlil göstərir ki, bu aparıcı özül və elementlər bir mühüm mənəvi-mədəni fəza daxilində inteqrallaşmış, fəaliyyət göstərmiş və bu gün də funksionallıqlarını saxlamaqdadır. Bəs, söhbət hansı mənəvi-mədəni fəzadan gedir, onun məğzi nə kimi fenomenlər hesabına təşkilatlanır, strukturlaşır və formalaşır? Həmin fenomenlər bunlardır: xalqçılıq və ümumxalq mənafeyi, millət və milli maraqlar, dövlət və dövlətçiliyin tərəqqisi, yurdsevərlik və doğma torpaq məhəbbəti, vahid Vətən və onun ərazi bütüvlüyü, suverenliyi. Ona görə də Azərbaycan dövləti üçün müstəqillik dövründə milli təəssüb və milli qürur hissinin yüksək tutulması, müasir sivilizasion inkişafda milli müəyyənləşmənin, zəruri xətt kimi daha intensiv surətdə davam etdirilməsi və bu əsasda azərbaycançılıq məfkurəsinin inkişafına, zənginləşməsinə, ümumi vətəndaşlıq və türkçülük "Tam"ında onun üzvi özünəməxsusluq gücünün artmasına, pərvazlanıb təravətlənməsinə daha çox önəm verilməsi prioritet vəzifə, mənəvi-mədəni, əqli-ruhi vektor olmuşdur. Elə bir ideya-ideallar vektoru ki, təbii və qanunauyğun olaraq Azərbaycan silahlı qüvvələrinin, ümumən, güc strukturlarının müasir tələblər səviyyəsində qurulmasını, intensiv inkişafınını şərtləndirmiş və stimullaşdırmışdır. Habelə, bununla həmahəng olaraq həmin vektor böyüməkdə olan nəslin, gənclərin Vətən, doğma Yurd, Torpaq sevqisinin qidalanmasını, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda Vətən müharibəsinə hazır olmasını, misilsiz rəşadət göstərməsini təmin etmişdir. Müstəsna əhəmiyyətli bu əqli-mənəvi ideya-ideallar sisteminin mükəmməl formalaşması bizim gələcək mövcudluğumuzu da daha etibarlı və dayanıqlı edir.

Bİz 20 sentyabr 2023-cü il tarixindən tam yeni bir varlıq içində yaşayırıq. Qürur hissi keçiririk, duyğularımız, emosiyalarımız bəzən aşıb-daşır, lakin məntiqimiz, idraki təfəkkür sistemimiz sanki lapdan hasil olmuş fövqəlinqilabi varlığı hərtərəfli, dərindən dərk edib anlamaqda çətinlik çəkir. Epistemoloji təhlil gücümüz, düşüncə arsenalımız, hətta leksika və ifadə üslubumuz heç də həmişə adekvat səviyyədə olmur. Yaranmış varlığı, ona gətirib çıxaran yolun, prosesin mahiyyətini, nəhayət, bu varlıq nələri doğura bilər kimi məsələləri çözməkdə indiyə qədər işlətdiyimiz və sahib olduğumuz idraki alətlərin, vasitələrin özü, yəqin ki, daha da elmləşməklə yeniləşməlidir. Ədəbiyyatçılar, tarixçilər, iqtisadçılar, sənət adamları və ümumən, başqa sahələrin təmsilçiləri üçün bu iş daha asan başa gələn kimi görünsün. Lakin, meqabilik statusunda çıxış edən fəlsəfənin təyinatı və tələbləri səviyyəsindən yanaşdıqda məsələ xeyli dərəcə başqa cür anlaşılmalıdır, çünki söhbət məna-mahiyyət axtarışından gedir. Filosoflardan daha artıq zəhmət, fədakarlıq və xüsusi yaradıcılıq tələb olunur. Bunu fəlsəfənin üzərinə düşən fərqli missiya şərtləndirir.

Yeni ictimai və bəşəri varlığın hasil olmasında bizim bir xalq, ölkə kimi belə möhtəşəm hədəflərə çatmağımızda, şübhəsiz, Ali Baş Komandanın məharətli rəhbərliyilə formalaşmış, yüksək peşəkarlıq və şücaət göstərmiş Qəhrəman Ordumuzun, canını-qanını doğma Vətən-Torpaq yolunda vermiş rəşadətli, cəsur, mərd oğullarımızın rolu misilsiz təqdirə layiqdir. Qəhraman oğullarımızın qarşısında baş əyərək, şəhidlərimizə qəni-qəni rəhmət, qazilərimizə şəfa diləyirəm. Düşünürəm ki, biz alim-filosoflar şərəfli oğullarımızın göstərdikləri yüksək mərdlik, qəhramanlıq səviyyəsində öz işimizi qurmalı, vəzifə borcumuzu yerinə yetirməli və var gücümüzlə ölkəmizin çiçəklənməsinə, dövlətimizin möhkəmlənməsinə çalışmalıyıq. Yalnız bu yolla əziz şəhidlərimizin ruhunu şad edə bilərik. Fəaliyyətimiz, elmi araşdırmalarımız və əldə etdiyimiz nailiyyətlər onların adına, möhürlərini vurduqları Zirvəyə layiq olmalıdır. Buna qadir olsaq yeni-yeni Zirvələrə yol açaraq xoşbəxt gələcəyimizi təmin edib ən güclü, nüfuzlu ölkələr sırasında qərarlaşarıq. Bu perspektivə mən tam inamlıyam! Vacibdir ki, uğurların möhtəşəmliyindən "baş gicəlləndirməsi" keçirməyək və xəyalpə-

rəstliyə, yaxud arxayınçılığa vararaq yerimizdə saymayaq. Mütləqdir ki, yaradıcı fəallığımızı, dinamikliyimizi və düşünülmüş çevikliyimizi daha da artıraq illərlə həllini gözləyən problemlərin üzərinə gedək, optimal üsul, forma və mexanizmlər axtaraq, lazımdırsa, yeni işlək sistemlər quraq.

Milli quruculuqda, ümumən, millətləşmə prosesidə və dövlətçiliyin inkişafında müstəsna əhəmiyyətə malik "ideologiya" dedikdə, mən o ideya-ideallar və prinsiplər sistemini nəzərdə tuturam ki, onun varlığının məğzini geniş və dərin məna daşıyan **ictimai mənafe** təşkil edir. Belə ki, bu ideologiya yalnız ayrı-ayrı sosial qrup və təbəqələrin maraqlarını deyil, dövlətin ərazisində yaşayan bütün sosial, etnik, dini qrup, icma və birliklərin mənafeyini ifadə edir, təməldən birgəyaşayış mədəniyyətinə, qarşılıqlı fayda verən əməkdaşlığa və milli bütövləşməyə xidmət edir, sağlamlaşdırıcı ruh aşılayır.

Ümumi şəkildə deyə bilərik ki, milli dövlətçilik ideologiyası cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi fəaliyyət sahələrində, habelə, beynəlxalq aləmlə dövlətin münasibətlərində məfkurə əsasları kimi qəbul olunan və rəhbər tutulan ideya və prinsiplərin, müddəa və şərtlərin cəmini ifadə edir. Bu ideologiyanın mühüm təyinatı ondan ibarətdir ki, cəmiyyətin müxtəlif həyat sahələrinin təşkili və idarə olunması ölkənin bütün spesifik (coğrafi, etno-milli, dini-konfessional, demoqrafik, intellektual, geosiyasi və s.) cəhətləri nəzərə alınmaqla özünü doğrultmuş bəşəri dəyərlər, ideya və prinsiplər əsasında, rasional üsul və metodlarla həyata keçirilsin. O, fərdlər, qrup və təbəqələr arasında tarazlığa, maraqların uzlaşmasına, sosial ədalətin və nizamın qərarlaşmasına xidmət etməli, insan-cəmiyyət, vətəndaş-dövlət münasibətlərini optimal tərzdə tənzimləməli, ümumi rifahın və cəmiyyətdaxili sosial həmrəyliyin, harmoniyanın təntənəsini bir məqsəd kimi qarşıya qoymalıdır. İnsanların şüurunda işlərin gedişini səliqə-sahmana salmağa, ictimai inkişafın optimal istiqamətlərini aydınlaşdırmağa, onların sosial düşüncə, ictimai fikir prinsiplərini, qərar qəbuletmə meyarlarını müəyyənləşdirməyə, milli prioritetləri dəqiqləşdirməyə yönəlmiş belə ideologiya ümumbəşəri tarixi təkamül tələblərinə, zaman-məkan şərtlərinə, elmi-idraki determinantlara cavab verməli, milli-tarixi, genetik-irsi və bəşəri dəyərlərə söykənməli, reallıqdan pöhrələnən **İDEALın** gerçəkləşməsi naminə öz fəaliyyətini qurmalıdır. Söhbət mövcud reallığın rasional davamı kimi çıxış edən o **İDEALdan** gedir ki, gələcək vəziyyətin ruhlandırıcı təsviri, sövqedici məramnaməsi olmaq etibarilə, subyektiv və xəyalpərəst mülahizələrdən uzaq durmağı üstün tutur və vacib bilir. Bəşər tarixinin təbii məhsulu, indinin konstruktiv davamı olan bu **İDEALın** qayəsi **zəruri və ədalətli** olan uğrunda mübarizədə rasional yolları və vasitələri bilməkdən, imkan sərhədlərini tanımaqdan ibarətdir.

Milli ideologiya, bütövlükdə, cəmiyyətin həyat və fəaliyyətini, ictimai münasibətləri zəruri olan istiqamətdə və məzmunda təşkil etmək, milli maraqların həyata keçrilməsini gerçəkləşdirmək üçün praktiki vəzifələrin həll edilməsinə yönəldilmiş biliklərin üzvi sintezi, ideya-ideallar və prinsiplər sistemidir. Yalnız ümummilli mənafeyə, milli birlik, sosial ədalət və ictimai tərəqqi tələblərinə cavab verdikdə tarixi və sosial zamanın cərəyanı daxilində öz yaradıcılıq qabiliyyətini saxladıqda milli ideologiya öz missiyasını daşımağa qadir olur. Məhz bu mahiyyətdə və statusda milli ideologiya, həqiqi mənada, hakim ideologiya səviyyəsinə yüksəlir, bir sosial qrupun və yaxud da ayrıca bir siyasi partiyanın deyil, bütöv xalqın maraqlarını ifadə və müdafiə edir. Elə bu səbəbdən də "demokratik dövlətlərdə hakim ideologiya ola bilməz" fikri heç də mütləq həqiqət kimi qəbul oluna bilməz. Əksinə, cəmiyyət və dövlət nə dərəcədə etibarlı və davamlı mövcudluğa, nizamlı yaşayışa qadirdisə bir o qədər də yararlı düşüncəyə, təsəvvürlər sisteminə, təbii olaraq hakim kəsilmiş kamil ideologiyaya borcludur. Xüsusilə, mürəkkəb, ziddiyyətli transformasiyalar, sərt dönəmlər dövründə. Necə deyərlər, "istiqamətini bilməyən gəmi üçün heç bir külək səmt küləyi ola bilməz!". Mükəmməl ideologiya olmadan hətta başlıca hədəfləri bir sistem halında konkret müəyyənləşdirmək mümkün deyil.

Milli ideologiyanın ümumi təyinatına və təbiətinə dair yuxarıda dediklərimizi nəzərə al-

maqla bu ideologiyanın özəyini təşkil edən ideya və prinsipləri müəyyənləşdirməyə çalışaq. Onlar hansılardır, yaxud nədən ibarətdir? Qoyulan sualı cavablandırmaq məqsədi ilə bəzi fikir və mülahizələrimi açıqlamaq istərdim.

Məsələyə münasibətdə ən əvvəl mərhum filosofumuz Məqsəd Səttarovun bir fikrini xatırlatmaq istərdim: "prinsiplərin müəyyən edilməsi çox ciddi yaradıcılıq işidir" və "burada şablonçuluğa, süni quraşdırmalara, başqa ölkələrin ideoloji prinsiplərindən mexaniki qaydada istifadəyə yol verməк olmaz". (5) Problemə məntiqlə yanaşdıqda aydın olur ki, prinsiplərin müəyyənləşdirilməsinin özü konkret şərtlərin ödənilməsindən keçir. Bu şərtlər sisteminin məğzini isə mənim təqdimatımda, aşağıdakılar təşkil edir:

- konkret tarixi səciyyə daşıyan təkcə, xüsusi və ümumi xarakterli göstəricilərin, imkan və zərurətlərin nəzərə alınması, başqa sözlə desək, real gercəkliyə adekvat münasibətin gözlənilməsi;
- ölkənin və dünyanın keçdiyı tarixı təkamül yolunun hər bir mərhələsinə saygılı və dözümlü münasibətin göstərilməsi;
- etnik birliklərin, xalqların və millətlərin tarixinə, özünəməxsus varlığına, mənəvi-mədəni irsinə həssaslıq;
- ümumidövləti və milli maraqların ödənilməsindən qaynaqlanan insan ləyaqətinə və şəxsiyyət suverenliyinə hörmət hissinin yüksək tutulması;
- yaradıcı zəka suverenliyinin dəstəklənməsi və yüksək tutulması, intellekt potensialından səmərəli və məhsuldar istifadə;
- birgəyaşayış və birgəfəaliyyət mədəniyyətinin mahiyyətindən irəli gələn tələblərin, ölçü və meyarların təmin olunması;
- elmi rasionallıq, məntiq tələblərinin ödənilməsi, innovasion zəka gücündən istifadə, etibarlı elmi idrak fəzasının formalaşdırılması;
- mühüm fenomenlərin şərhində sinergetik yanaşmanın, ümumən, postneoklassik epistemologiyanın zəruriliyi;
- millət fenomenini inkişafda olan çoxşaxəli və çoxsəviyyəli bir mürəkkəblik kimi dərk və təhlil etmək;

Beləliklə, mənim təqdimatımda, milli dövlətçilik ideologiyasının mühüm tərkib hissələri, mahiyyət daşıyıcıları kimi qeyd olunmasını vacib bildiyim pirinsiplər bunlardır:

**1. Suverenlık prinsipi**.

Konstitusiya hüququnda suverenliyin üç növünü fərqləndirirlər – **dövləti suverenlik**, **milli suverenlik** və **xalq suverenliyi**. Bunların hər biri dıgərlərinin tam və dolğun mövcudluğu üçün vacibdir. Bu suverenlik növləri bir-biri ilə qarşılıqlı əlaqə və təsiretmə nisbətindədirlər. Dövləti suverenliyin mənası dövlət hakimiyyətinin ölkə daxilində aliliyində və xarici aləmlə münasibətlərində müstəqilliyindədir. Bu, hər hansı xarici hakimiyyəti öz ərazisində istisna edən dövlətə məxsus qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinin tamlığı və xarici ölkələrin hakimıyyətlərinə dövlətin tabe olmaması deməkdir. Millətin isə tamhakimıyyətliliyə, siyasi azadlıga, öz həyatını müəyyənləşdirmək üçün real imkana malik olması milli suverenlik anlayışı vasitəsi ilə ifadə edilir. Milli ehtiyacların, mənafe və məqsədlərin təmin olunması milli suverenliyin ilkin şərtidir. Hər hansı imtiyazlı şəxsin və ya qrupun, sosial təbəqə və ya siyasi qüvvənin mənafeyi milli mənafe kimi irəli sürülə bilməz. Xalq suverenliyi dedikdə isə xalqın cəmiyyət və dövlət işlərinin təşkilində, idarə olunmasında fəal iştirakını təminatlandıran siyasi, sosial-iqtisadi və mənəvi-mədəni vasitələrə yiyələnməsi nəzərdə tutulur. Xalqın öz hakimiyyətini seçməyə, təşkil etməyə və dəyişməyə hüququ vardır. O, dövlət hakimiyyətinin yeganə mənbəyidir. Bu müddəa Azərbaycan Respublikasının Konstitusiyasında da təsbit olunmuşdur.

Bir məqamı, xüsusilə, vurğulamaq istərdim: xalqın və millətin suverenliyi təmin olunmadığı halda dövləti suverenliyinin tam mənada reallaşmasından danışmaq əbəsdir. Xalqın və millətin iradəsi həyata keçmirsə, deməli, cəmiyyətin bütün həyat sahələrində neqativ halların hökmranlığına yol açılır, ölkənin taleyi təhlükə altına alınır, onun get-gedə aparıcı əcnəbi dövlətlərdən, xarici güc mərkəzlərindən asılılığı artır və həqiqi müstəqillik zəminləri ciddi sarsıntıya məruz qalır. Aydındır ki, belə gedişatda milli sərvətlər (maddi və mənəvi)

destruktiv, qeyri-rasional münasibətlə üzləşir, get-gedə daha çox tükənir, insani intellektual ehtiyatlar amansızcasına məhvə məhkum olunur, sosial-mədəni dəyərlər güclü aşınmaya məruz qalır, mənəvi tənəzzül baş verir. Fərdlər, sosial qruplar və bütöv cəmiyyət səviyyəsində elə bir deqradasiya, mənəvi-psixoloji diskomfort, total miqyaslı "sarsılmış şüur", "psixi kollaps" sindromu özünü göstərir ki, qarşısını almaq çox çətin olur. Dünya dövlətlərinin tarixi təcrübəsi bu həqiqətləri dəfələrlə sübut etmişdir.

Əlbəttə ki, bu üç növ suverenitetlər ierarxiyasında dövlət suverenliyi həlledici rol daşıyır, xüsusən də mürəkkəb keçid dövrlərində. O, yoxdursa və yaxud tam deyilsə, xalq və millət suverenlikləri də mütləq kəsirdə qalır, natamam qalır. Belə ki, dövləti suverenlik bütün ölkə ərazisində konstitutsiya quruluşunun təmin olunması deməkdir. Məsələn, əgər ərazi bütövlüyü zədələnibsə, müəyyən torpaqlar işğal altındadırsa dövlətin suverenliyi, istər-istəməz, gövrək olur, tam həcmdə və mənada təmin olunmur. Aydındır ki, bu halda xalqın və millətin suverenliyi həmin faktorla məhdudlaşmış olur. Və bu mühüm qanunauyğunluq dövlətin idarə olunmasında mütləq nəzərə alınmalıdır. Burada məsələyə abstrakt demokratiya mövqeyindən yanaşmaq ölkəni, xalqı və milləti olduqca çətin vəziyyətə sala bilər. Problemə məhz bu mövqedən yanaşdıqda, Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin xidmətlərini daha adekvat və layiqincə qiymətləndirə bilərik.

**2.** Birincinin məntiqi davamı olaraq ikinci mühüm prinsip kimi **demokratiya prinsipini** göstərə bilərik ki, o, cəmiyyətin təşkilində, fəaliyyətində və idarə olunmasında vətəndaşların iradəsinin, istək və arzularının həyata keçməsini təmin edir, dövlət aparatı və siyasi hakimiyyət üzərində ictimai nəzarəti gerçəkləşdirir. Bu prinsipin fəaliyyət göstərdiyi cəmiyyətlərdə dəqiq müəyyənləşmiş və hamı tərəfindən etiraf olunan qaydalara uyğun hər bir şəxsin maneəsiz öz mövqeyini, maraqlarını ifadə etmək imkanları olur; dövləti funksiyaların daşıyıcıları da qanunla müəyyən edilmiş qaydada və müddətlərdə seçilir, öz seçiciləri, xalq qarşısında məsuliyyət daşıyırlar. Seçicilərsə öz məqsədlərinə çatmaq üçün müstəqil hərəkət etmək, yaxud da siyasi partiyalarda, ictimai təşkilatlarda azad birləşmək və birgə fəaliyyət göstərmək imkanında olurlar. Cəmiyyətdə söz, vicdan, əqidə, mətbuat azadlığı təmin edilir, ictimai həyatın bütün sahələrinə dair informasiya əldə etmək imkanı qazanılır, suçsuz təqiblərə yol verilmir. Demokratiya–bütün cəmiyyətdaxili "vahid"lərin etirafı və harmoniyası, hər bir alternativə hörmət deməkdir. Ayrıca götürülmüş "imtiyazlı hissə"yə mütləq və daimi istinad demokratiya ilə bir araya sığışmır. Demokratiya – "başqası"na mənəvi ehtiyaclıqdır, mədəni təfəkkürün və davranışın tələbidir. O, elə açıqlığı tələb edən varlıqdır ki, təfəkkür və davranış öz sərhədlərini bilir, ictimai həyat isə ölçü nisbətlərinin gözlənilməsi zəminində cərəyan edir.

**3.** Dövlət və demokratiya məfhumlarını mükəmməl tərzdə ahəngləşdirən, irqindən, dinindən, cinsindən, dilindən, siyasi əqidəsindən, milli və sosial mənşəyindən, əmlak, silki, yaxud digər vəziyyətindən asılı olmayaraq dövlət quruculuğu və idarəçiliyində vətəndaşların bərabərhüquqlu iştirakını nəzərdə tutan **respublikaçılıq prinsipi.** Respublika – rasional zəminlər üzərində təşkil edilmiş azad quruluşdan ibarət olan dövlət idarəçilik formasıdır. Burada hakimiyyət qolları Konstitusiyaya, qanunlara, hüquqa və onların barəsində formalaşmış ictimai rəyə bağlı olur. Respublika idarəçilik formasında fərdi hüquq və şəxsi-subyektiv istəklər əsasında dövlət hakimiyyətinə yiyələnməyə yol verilmir: dövlət orqanları vətəndaş azadlıqlarının ciddi qorunması əsasında və azad seçkilər vasitəsi ilə formalaşdırılır; dövlət hakimiyyəti qanun və hüquq, vətəndaşların idarəçilikdə bərabərhüquqlu iştirakının və şəxsi ləyaqətinin təmin edilməsi əsasında həyata keçirilir. Respublika idarəçilik formasında demokratiya mücərrəd və total azadlığa çağırış deyil, səhmana salınmış azadlığın qorunması və xalq iradəsinin təntənəsidir. Xüsusi vurğulamaq istərdim ki, saxta demokratiya və oxlokratik azadlıq hərc-mərcliyindən, yaxud da ki, məmur özbaşınalığından, imtiyazlı şəxslərin suiistifadələrindən cana doymuş Azərbaycanda ölkəmizin ehtiyaclarına, spesifikliyinə və tarixi zamanın zərurətlərinə cavab verən bu tip idarə-

etmə fəlsəfəsinin qərarlaşmasına böyük ehtiyac vardır.

**4. Ədalət prinsipi.** Cəmiyyətin və şəxsiyyətin mütərəqqi inkişafının, ictimai əmin-amanlığın zəruri şərti kimi rəhbər tutulan bu prinsip hər bir şəxsin sosial vəziyyətinin cəmiyyətə, insanlara verdiyi faydadan asılılığını, ayrı-seçkiliyə son qoyulmasını, nomenklatura vəzifələrinə hər hansı imtiyazların verilməməsini, bütün vətəndaşların məhkəmə və qanun qarşısında həqiqi bərabərliyini, cinayətə görə cəzanın labüdlüyünü, cəmiyyətdə bütün maraqlı tərəflərlə razılaşdırılmış qərarların qəbul edilməsini tələb edir. Ədalətlilik – insan və cəmiyyət üçün mənəvi-əxlaqi oriyentidir. Ədalət – haqlının haqqını vermək, haqsıza həddini göstərməkdir. O, insanların səylərinə və məsrəflərinə cəmiyyət və onun qurumları, üzvləri tərəfindən mükafat, həvəsləndirmə, yaxud məzəmmət şəklində verilən cavabın uyğunluğunun ölçüsüdür. Bu prinsip tələb edir ki, insanların əməyi ilə məvacibləri, qanuni gəlirləri ilə həyat tərzləri, xidmətləri ilə mükafatları, qəbahətləri ilə məzəmmətləri, cinayətləri ilə cəzaları arasında müvafiqlik gözlənilsin. Ədalət prinsipi gözlənilmirsə nə ictimai tərəqqi, nə şəxsiyyət azadlığı, nə də hamının inkişafı üçün şərait və imkanlar ola bilməz. Ədalət hər bir xalqın və dövlətin gücü, qüdrətidir!

**5. Millilik (millətləşmə) prinsipi.** Əvvəla, onu deyim ki, bir siyasətçi, mütəfəkkir kimi M.Ə. Rəsulzadənin həmişə öndə tutduğu bu prinsip ən dolaşıq, ziddiyətli anlaşılan, mübahisə doğuran prinsiplərdən biridir. Fikrimcə, “millilik” anlayışı ilə “millətçilik” anlayışı çox hallarda qarışdırılır, yumşaq desək, ixtiyari surətdə istifadə edilir. “Millətçilik” anlayışı bir milləti onun keyfiyyətlərini şişirtmək, nöqsanlarına isə göz yummaq yolu ilə digər millətlərə, o cümlədən dövlətin ərazisində yaşayan millətlərə qarşı qoymaqdırsa, “millilik” anlayışı millətin öz milli mənliyinin, milli şüurunun, mədəniyyətinin, dininin, tarixinin, adət-ənənəsinin, mənəvi-əxlaqi dəyərlərinin layiqincə qiymətləndirilməsini, bununla yanaşı, digər millətlərə də hörmət və ləyaqətlə yanaşılmasını ifadə edir. Burada hörmətli oxucuların diqqətini istedadlı, nümunəvi mərifət sahibi olan bizim bir tədqiqatçının – Kamran Məmmədovun əsərlərinə, o cümlədən onun “Millət və millətçilik” adlı olduqca maraqlı və dəyərli kitabına yönəltmək istərdim **(6).**

Millilik heç də başqa xalqlara qarşı yönəldilmiş bir ideoloji prinsip deyildir. O, məxsusi millətləşmə prosesində aparıcı və strukturyaradıcı etnosun (Azərbaycan türklərinin) rolunu etiraf və qəbul etməklə yanaşı, ölkəmizdə yaşayan bütün etnosların Azərbaycana bağlılığını, onun bu gününə və gələcəyinə birgə məsuliyyətini nəzərdə tutur, vahid Azərbaycan ideyası əsasında millətləşməni tələb edir. Qeyd edim ki, bəşər sivilizasiyasının (ilk öncə Qərb dünyasının) əldə etdiyi bir çox nailliyətlər məhz millətləşmə hesabına mümkün olmuşdur. Biz də bu yolu ardıcıl olaraq – ağılla, yaradıcı münasibətlə, təmkinlə keçməliyik! Hazırda Konstitusiyamızda vacibliyi vurğulanan və insanlar tərəfindən möhkəmləndirilməsi arzulanan **hüquqi dövlət** də elə eyni vaxtda yalnız **milli dövlət** ola bilər. Ərazi tamlığını və millətin siyasi bütövlüyünü müdafiə edən, milli sosial-iqtisadi inkişafın və milli mədəniyyətin, mənəvi-əxlaqi özüllərin qorunub saxlanmasının qarantı olan bir dövlət! Milli dövlət ideyasının təbliğatçılarından olan görkəmli alman filosofu İ.Q. Fixte vaxtı ilə göstərirdi ki, dövlət ayrı-ayrı xüsusi maraqların deyil, millətin maraqlarına, onun birləşməsinə və vahidləşməsinə xidmət etməli, daşıyıcısı xalq olan mənəviyyatın müdafiəsində durmalıdır. Onun fikrincə, təkcə hüququn mövcudluğu insanı həqiqi mənada azad edə bilməz. İlk növbədə mənəvi-əxlaqi vəziyyətin (fərdi və ümumi mənada) səviyyəsindən, “millətin ruhu”na mənsubluqdan asılı olaraq insan azad ola bilər **(7).** Razılaşaq ki, Fixtenin bu mülahizələrində həqiqət heç də az deyil, xüsusən də Azərbaycan cəmiyyətinin indiki vəziyyətindən çıxış edərək onun baxışlarını düzgün qiymətləndirsək.

Obyektiv olaraq açıq-aşkar desək, bugünkü “mədəniyyətimiz” və “mənəviyyatımız” nəinki insan azadlığını və şəxsiyyət suverenliyini dəstəkləyir, insanın öz mövcudluğunu belə təhlükə altına almışdır. Bu sahələrdə baş verən deqradasiya, destruktiv tendensiyalar, bayağılıq və qeyri-professionallıq, yalan və riyakarlıq göz qabağındadır. Bazar fundamentalizmi, kapital (pul-gəlir) ideologiyası, kommersi-

yaçılıq, şoumençilik, ifrat fərdiyyətçilik, ekzestal özgələşmə mədəniyyəti və mənəviyyatı içindən çürütməkdədir. Belə olan vəziyyətdə Ana Torpaq, Doğma Vətən, "Ümumi İş" təəssübkeşliyindən, xalqın marağından, milli mənafedən danışmaq, həqiqətən, bəziləri üçün çox arxaik, yersiz görünür. Onların "özəl ideallar"ı ümumi olanı, birgə-bahəm mənfəət və fayda götürmək cəhdini qəbul etmir.

Hüquqi dövlətə yol millətləşmədən, deməli, ümumi statuslu məfhumlara (Vətənə, Torpağa, Xalqa, Millətə, Dövlətə, Dinə, Dilə və s.) dərin məhəbbət və həssaslıqdan, **TAMa** qayğılı münasibətdən keçir. Və bu, heç də insanı fərdi hüquq və azadlıqlardan məhrum etmir, əksinə, onları təminatlandırır və gücləndirir. **Millətləşmə**, hər şeydən əlavə, **siyasi** və **hüquqi şüur səviyyəsində yüksək tarixi-mədəni birlik formasının mövcudluq üsuludur**. Dünyanın digər ölkələri ilə müqayisədə Qərbi Avropa dövlətlərinin, Yaponiya, Çin, Sinqapur, Tayvan, Cənubi Koreya və Yeni Zelandiyanın ümumi inkişaf baxımından önə keçmələri və istərsə ictimai həyatın təşkili və idarə olunması, istərsə də elm, texnika və texnologiya sahəsində böyük uğurlar qazanmaları, fikrimcə, məhz əsaslı millətləşmə ilə bağlıdır.

Millətləşmə milli dövlətin və dövlətçilik ənənələrinin bərqərar olub davamlı fəaliyyət göstərməsini, siyasi-hüquqi, mənəvi-mədəni cəhətdən xalqın, etnik qrupların ümumi səviyyədə vahidləşməsini, xalq və mlli suverenliyin öz təyinatına uyğun məzmun-mahiyyət daşımasını, cəmiyyətin təşkilndə və idarə olunmasında effektli, bilavastə subyektiv amillərdən asılı olmayan norma və prinsiplərin, forma və modellərin rəhbər tutulmasını, milli mənlik və milli qürur hissinin nizamlı tərzdə ifadəsini, fərdi istək və arzuların ümumxalq maraqları çərçivəsində reallaşmasını, ümumi mənafelərin tənzimləyici və istiqamətverici status daşımasını, ictimai və fərdi həyatın bütün istiqamətləri üzrə hüquqi müəyyənləşmənin mövcudluğunu ehtiva edir. O, insanların milli məfkurə zəminində nizamlı birliyini, millətin bu gününə və gələcəyinə birgə məsuliyyətini nəzərdə tutur. **Millətləşmə - etnik müəyyənləşməni siyasi və hüquqi müəyyənləşmə səviyyəsinə, milli bütövlük dərəcəsinə yüksəldən prosesdir**. **Millətləşmə - əqli-intellektual, ruhi və fiziki gümrahlaşma, intibaha qovuşma yoludur**. Bu intibah isə M.Ə. Rəsulzadəyə görə, millətin hüqüq və şərəfini müdafiə etməyə qadir gücdür, dünyaya məhəbbətdir. "Millət" olmaq mərhələsi və statusu yalnız milli dirçəliş, vahid dövlətçiliyə, siyasi və hüquqi mədəniyyətə mənsubluq vasitəsi ilə mümkündür ki, bu da hər şeydən öncə milli müstəqillik və suverenlik zəminində gerçəkləşə bilər.

**6. Azərbaycançılıq prinsipi.** XX əsrin 90-cı illərində mərhum Prezident Heydər Əliyev tərəfindən böyük inam və inadla yenidən irəli sürülmüş **azərbaycançılıq**, əvvəlki bənddə şərh etdiyimiz millətləşmənin həm aparıcı tərkib hissəsi, həm də konkret ifadə və reallaşma formasıdır. Millətləşmə o dərəcədə (təyinatına uyğun) gerçəkləşə bilər ki, Azərbaycan ideyası yüksək tutulsun, azərbaycançılıq istiqamətverici və rəhbər prinsipə, ictimai praktikaya çevirilsin. Azərbaycançılıq əsrlər boyu eyni bir ərazidə (Azərbaycanda) yaşayan, çarpazlaşan və bir-biri ilə uzlaşan psixoloji cəhətlərə malik, bir-birini bəhrələndirən oxşar sosiomədəni dəyərlərin daşıyıcısı olan xalqların, etnik birliklərin tarixi müəyyənləşmə formasıdır. Onun hədəfi Azərbaycanda yaşayan bütün əhali qrupları arasında həmrəyliyin və qarşılıqlı fayda verən əməkdaşlığın möhkəmləndirilməsindən, vahid Vətən ruhunun müdafiəsindən ibarətdir. O, etniklər, dini icmalararası tolerantlığın, milli həyat harmoniyasının əsasıdır. Real müstəqillik, demokratik normalara söykənən stabillik və ictimai tərəqqi bu prinsipdən və onu rəhbər tutan ictimai praktikadan, həyat tərzindən kənarda mümkün deyil.

Tarixi ədalət naminə vurğulamaq istərdim: azərbaycançılıq məfkurəsinin vaxtı ilə intişar tapmasında və formalaşmasında iki görkəmli şəxsiyyətin – M.Ə. Rəsulzadə və İ.V. Stalinin rolu danılmazdır. M.Ə.Rəsulzadənin elmi-nəzəri irsi ilə yaxından tanışlıq göstərir ki, bu böyük vətənpərvərin, siyasi mütəfəkkirin yaradıcılığında türk millətçiliyindən və islam hümmətçiliyindən azərbaycançılğa doğru ciddi transformasiya var **(8)** . Hətta, deyərdim ki, bu üç ideya və prinsipin (türkçülük, islamçılıq və azərbaycançılığın) **sinergetik mövcudluğuna** onun tərəfindən dərin ümid bəslə-

nilmişdir. Ümumiyyətlə, solidarizm, müasir elmi müstəvidə və daha geniş-dərin mənada ifadə etsək, sinergizm M.Ə.Rəsulzadənin ideya-nəzəri irsinin, onun təfəkkür tərzinin səciyyəvi xüsusiyyətlərindən idi. Təəssüflər olsun ki, bu məqamlar onun ideya varisləri tərəfindən bu günə kimi ictimaiyyətin diqqətinə qaneedici həcmdə və keyfiyyətdə çatdırılmamışdır. Hər halda xələflik missiyasını üzərlərinə götürmüş cənablar bu barədə hamıdan çox düşünməlidirlər.

Akademik Ramiz Mehdiyevin "XXI əsrdə milli dövlətçilik" əsərində göstərdiyi kimi azərbaycançılıq mühüm funksional elementlərlə zəngindir, onların məğzi – ölkəni mənəvi və fiziki cəhətdən zəiflətmək cəhdindən qorumaqdır. İdeya-siyasi, dünyagörüşü zəmini, düşüncə və əməl vektorunun aparıcı tərkib hissəsi olaraq, azərbaycançılıq Azərbaycanın unitar, hüquqi, demokratik dövlət kimi möhkəmlənməsinə və inkişafına yönəlmişir **(9).**

Azərbaycançılıq yüksək milli nizam-intizamın, dövləti şüurun, birgəyaşayış və birgə fəaliyyət mədəniyyətinin həm səbəbi, həm də nəticəsidir. O, fikrimcə, hər bir azərbaycanlının şüurunda, həyat tərzində, əmək fəaliyyətində aparıcı mövqe tutmalı və daim təbliğ olunmalıdır. Ona yalnız bu günün ideya-siyasi baxışlar sistemini modernləşdirən prinsip kimi yanaşmaq düzgün olmazdı. Azərbaycançılığın əhəmiyyətli, habelə, perspektiv təfəkkürün, gələcəyə baxış sisteminin və həyat tərzinin formalaşdırılmasındadır. Və burada özünəməxsusluqla beynəlmiləlçiliyin üzvi vəhdətinin nəzərə alınması ümdə əhəmiyyət daşıyır. Belə ki, azərbaycançılıq heç də bəsit mənada özünə qapalılıq, dünyadan təcrid olma deyil. O, cəmiyyət üzvlərini, sosial qrup və təbəqələri, etnik icmaları bir millət kimi konsolidasiyaya və bütövlüyə gətirməklə yanaşı, onların dünyaya açıqlığını da təmin etməli, faydalı ünsiyyət, mübadilə və əlaqəni qidalandırmalıdır. Hesab edirəm ki, millətin ümumi maraqlarının formalaşmasında, bu maraqlardan irəli gələn məqsədlərin müəyyənləşməsi və reallaşması prosesinə ifrat subyektivlik mövqeyidən müdaxilənin qarşısının alınmasında azərbaycançılıq prinsipi xüsusi yer tutmalıdır. Bununla belə, etiraf edək ki, milli dövlətçilik və vətəndaşlıq müstəvisində yeni şəxsiyyətin formalaşmasının əsaslarından biri kimi azərbaycançılıq bir ideoloji konsept və ictimai praktika olaraq daha da dərindən və ətraflı öyrənilməlidir.

**7. Müxtəliflik vasitəsi ilə birliyə (vahidliyə) cəhdetmə prinsipi.** Etnik, coğrafi, ideya-siyasi, dini baxımdan öz rəngarəngliyi, müxtəlifliyi ilə fərqlənən ölkəmiz üçün bu prinsipin rəhbər tutulması olduqca vacibdir. O, necə deyərlər, bizim siyasi mədəniyyətimizin kodu, aparıcı özüllərindən biri olmalıdır. Öz daxili mahiyyətinin reallaşması nöqteyi-nəzərdən bu prinsip bir-birini üzvi surətdə təsirləndirən və doğuran iki yanaşmanın vəhdətini tələb edir.

**Birinci** yanaşmanın məğzi ümumdövləti və milli maraqlardan qaynaqlanan müxtəlifliyin üstünlüyünü nəzərdə tutan **plüralizmdən** ibarətdir. Belə ki, plüralizm cəmiyyətin hər bir üzvünə, qrupuna özünüifadə və özünütəsdiq üçün bərabər imkanlar verməklə ictimai inkişaf və tərəqqinin mənbəyi kimi çıxış edir. Bu ideya sosial, siyasi, mənəvi və iqtisadi sahələrdə qarşılıqlı fayda verən əməkdaşlıqda, hamının qanun qarşısında bərabərliyində, azad rəqabətdə və sivil yarışda öz ifadəsini tapır. Həm qarşılıqlı surətdə əməkdaşlıq edən, həm də ziddiyyətli münasibətlərdə olan tərəflərin, qüvvələrin plüralizm şəraitində siyasətdə, cəmiyyət işlərində iştirakı dövlətin qanun çərçivəsində fəaliyyətinə müsbət təsir göstərir.

**İkinci** yanaşma isə bu mövqeni ifadə edir: nəzəri və əməli fəaliyyətdə müxtəlifliyə, alternativliyə cəhd vacibdir, lakin müxtəliflik vasitəsi ilə birliyə (vahidliyə) yiyələnmək, hansısa konkret və müsbət nəticə əldə etmək daha vacibdir. Bu nəticə yoxdursa, ümumiyyətlə, maraqlar tarazlığını ortaya qoyan **konsensusdan** danışmaq əbəsdir. Konsensus yaratmaq qabiliyyəti isə milli-dövlətçilik ideologiyasının başlıca əlaməti, keyfiyyət xüsusiyyəti olmalıdır. Həqiqət və insanlar üzərində diktatdan, kor-koranə tabeçilikdən deyil, əksliklərin bir-birini anlamasından və tamamlamasından, məntiq və zəka gücündən, ədalət və haqq istəyindən doğan konsensus və bunun nəticəsi olaraq yaranan **birlik** (**vahidlik**) layiqli mövcudluğun və tərəqqinin müqəddəs şərtidir.

**8. Tolerantlıq prinsipi.** Dözümlülük, sülhün və bütün xalqların sosial-iqtisadi inkişafının zəruri şərti olmaqla, dünyamızın zəngin, rəngarəng mədəniyyətlərinin, insan fəaliyyətinin özünüifadəetmə və büruzəvermə formalarının qəbulu, düzgün dərki və onlara hörmət deməkdir. Bu məqsədlərə isə biliklilik, aşkarlıq, ünsiyyət və fikir, vicdan və məslək azadlığı xidmət edir. Dözümlülük təkcə mənəvi borc deyil, həm də siyasi və hüquqi tələbatdır. Məhz bu səbəbdən də tolerantlıq prinsipi dövlət siyasətində ədalətli və qərəzsiz qanunvericilik, qayda-qanuna riayət, məhkəmə-prosessual və inzibati normalar, habelə, ayrı-seçkilik qoymadan hər bir insana iqtisadi, mənəvi və sosial inkişafı üçün şərait yaradılmasını tələb edir. Bu gün tolerantlıq yalnız bir ideya kimi deyil, əməli-praktiki tələb kimi dünya dövlətləri qarşısında qoyulur. Tolerantlıq məsələsi, sadəcə olaraq ölkədaxili problem, hansısa dövlət məmurunun öz xalqına bəxşeyişi, səxavəti kimi anlaşılmamalıdır. Problemin düzgün həlli - dövlətlər və dövlət xadimləri üçün bir vəzifə, borcdur. Başqa sözlə, tolerantlıq cəmiyyəti idarə edənlər və idarə etmək istəyənlər üçün məcburi xarakter daşıyır. Təsadüfi deyildir ki, BMT-nin 1995-ci il tarixli "Dözümlülük prinsipləri haqqında bəyannamə"sinin 2-ci maddəsində dövlətlər qarşısında belə bir tələb qoyulur: "Dövlətlər insan hüquqları haqqındakı beynəlxalq konvensiyaları təsdiq etməli, əgər lazım gələrsə, cəmiyyətdəki bütün qruplar və ayrı-ayrı şəxslər üçün bərabərhüquqlu yanaşmanı, imkanların bərabərliyini təmin etmək məqsədi ilə yeni qanunvericilik işləyib hazırlamalıdırlar" **(10)**. Bu tələbin məntiqi yönümündə düşünərkən bəzi dövlət məmurlarının "heç kim bizə demokratiya ixrac etməsin!" deməsi, insan hüquq və azadlıqlarına bir növ səxavətli atanın öz qızına cehiz verməsi kimi baxması açıq-aşkar surətdə ayrı-seçkilik siyasəti yeritməsi, cəmiyyətdə qarşıdurma, bir-birinə nifrət hissini alovlandırması ədalət istəyində, axtarışında olan şəxslərə qarşı zorakı üsullara, təqib və təzyiqlərə əl atması heç cür anlaşılan və qəbul olunan deyil. İctimai əmin-amanlığın zəruri şərtlərindən biri məhz konstruktivlik, obyektivlik və ədalətlilik tələbləri ilə şərtlənən tolerantlıqdır, "başqalar"a, onların əqidə, fikir və mövqelərinə hörmətdir.

**9.** Cəmiyyətdaxili münasibətlərdə, təbiət-cəmiyyət əlaqələrində, dünya ilə təmasda və başqa ölkələrlə hansısa birgə fəaliyyətdə qarşılıqlı fayda verən əməkdaşlığı və harmoniyanı təminatlandıran **sinergizm prinsipi.**

Bu prinsip ictimai sistemin sahə və səviyyələri üzrə enerji və güc daşıyıcılarının mütərəqqi təşkilatlanmasına və özünüidarəsinə, birgəyaşayış və birgəfəaliyyət mədəniyyətinin tərəqqisinə, maddi və mənəvi ehtiyatların artmasına və pozitiv istiqamətdə istifadəsinə, insanların yaradıcı səylər birliyinə, ölkəmizin beynəlxalq münasibətlərdə bərabərhüquqlu iştirakına zəmin yaradır. Sinergizm, əksliklərin effektli mükaliməsi və mübadiləsi, ictimai ziddiyyət və münaqişələrin optimal həlli üçün mühüm şərtdir.

Eyni zamanda, sinergizm direktiv, yaxud hansısa subyektiv hökmdən doğan səfərbəyliyi deyil, azad insanların maraq və ehtiyaclarının sərbəst uzlaşması əsasında sistemli fəallığı və kogerent fəaliyyəti nəzərdə tutur. O fəaliyyəti ki, cəmiyyətin prioritet maraqlarına qarşı çıxmır, əksinə, onların təmin olunmasının ən optimal və təbii forması kimi həyata keçirilir. Cəmiyyətdaxili stabillik isə sərt determinantlar, zorakı üsullar hesabına yox, ictimai proseslərin sərbəst cərayanı zəminində, özünütəşkil və özünüidarə vasitəsi ilə gerçəkləşir. Sinergizm müasir elmin nailiyyətlərindən bəhrələnən və çağdaş dünyanın inkişaf dinamikasına cavab verən yeni (postneoklassik) **rasionallıq** tipi ortaya qoyur. Elə bir rasıonallıq kı, bızım hər hansı obyekt haqqında bılıklərimiz yalnız idraki vasitələrə müvafiqliklə kifayətlənmir, fəaliyyətin dəyər-məqsəd strukturuna və təbiətinə təsir göstərir, hətta ona xüsusi önəm verir. Söhbət elə rasionallıqdan gedir ki, subyektin obyekt haqqında danışması ilə yanaşı, obyektin özünün danışmasına üstünlük verir (M.Haydegger cəhdi!) və bu istiqamətdə obyektə yardımçı olur. Rasionallığın belə tipi isə aydındır ki, daxilən qayğıkeş, həssas, tolerant və dialoqa həvəsli təfəkkür axarında mümkündür. Həmçinin, bu təfəkkür özü-özünə tənqidi yanaşan və məsuliyyətlidir. Məhz, ilk növbədə, özü-özünə münasibətdə və öz qarşısında

tənqidi olan təfəkkür! Belə təfəkkürü mən, mahiyyətindən çıxış edərək, **tənqidi-sinergetik təfəkkür** adlandırıram. Hesab edirəm kı, öz qabarıq fundamentalistliyi, qəddarlığı və təcavüzkarlığı ilə fərqlənən totalitar-avtoritar təfəkkürdən xilasolma prosesində onun faydası çox ola bilər.

**10.** Dövlət strategiyasının düzgün müəyyənləşməsi və milli təhlükəsizlik amillərinin möhkəmlənməsində, sosial münasibətlərin ahəngdarlığının və sağlam-mənəvi psixoloji mühitin qorunmasında mühüm əhəmiyyət kəsb edən (xüsusən də indiki mürəkkəb dövrdə) **zəruri məhdudiyyət (qadağa) prinsipi.** Ən ali qanunlar, konseptual və praktiki bağlantılar səviyyəsində fəaliyyət göstərməli olan bu prinsip rəhbər tutulmazsa cəmiyyətimizin necə deyərlər, nə sağlam fiziologiyası, nə də normal psixologiyası mümkün deyildir.

Hər bir cəmiyyət mürəkkəb bir sistem kimi dünya ölkələri sistemində qlobal ictimai həyatın destruktiv entropiyasına məruz qalır. Bu entropiyanın müxtəlif istiqamətlər üzrə (madi-iqtisadi, sosio-mədəni, mənəvi-psixoloji, elmi, siyasi) cəmiyyətimizə idxalı olduqca təhlükəlidir. Açıq cəmiyyət tipinə keçid dövründə bu entropiyadan mühafizə xüsusən vacibdir. Biz çalışmalıyıq ki, əksinə, cəmiyyətimiz “açıq qapı”lar vasitəsi ilə öz daxili entropiyasından azad ola bilsin. Həyatımızın “ictimai istehsal tullantıları” olan, qeyri-müəyyənlik, nizamsızlıq, özbaşınalıq, destruktivlik və əxlaqsızlıq simptomları kimi təzahür edən entropiyanın azlığı, minimum həddə saxlanılması cəmiyyətimizin nizam-sahmanlı həyatının şərtidir.

Nizamsızlığın, hədsiz qeyri-müəyyənliyin, dolaşıqlıq və xaosun, pozğunluq və deqradasiyanın daşıyıcısı olan sosial entropiya qadağa prinsipinin yoxluğu və yaxud fəaliyyətsizliyi şəraitində açıqlığa və demokratiyaya can atan cəmiyyətin pozitiv inkişaf perspektivini əlindən alır. Dünyada sürətlə gərginləşən vəziyyəti, turbulentliyin artığını və şiddətləndiyini nəzərə alsaq, bu təhlükənin böyüklüyünü daha yaxşı anlaya bilərik. Müasir dünyanın özü hər bir zəif, özünü mühafizə edə bilməyən cəmiyyət üçün qlobal entropiya mənbəyidir. Mövcud qlobal durum ciddi təhlükə göstərməkdədir və bu barədə çoxlu misallar, “yenilik nümunələri”ni qeyd etmək olar. Məsələn, istifadəyə yararsız ərzağın, vaxtı keçmiş və yaxud saxta “dərman”ların idxalı, **monstr-mədəniyyətin** məhsulu olan filmlərin, serialların ekspansiyası, çeşidli “tok-şou”ların, bayağı verilişlərin çoxluğu və təntənəsi buna əyani sübutdur.

Etiraf edək ki, bir çoxlarının hələ də “kütləvi mədəniyyət” adlandırdığı “monstr-mədəniyyət”in istilası nəticəsində mədəni adət-ənənələrimiz, mənəvi-ruhi aləmimiz, ictimai-tarixi dəyərlərimiz müdafiəsiz qalmışdır. Bu gün ibtidai, bəsit stereotiplərin, instiktlərin aqressıyası, telekanallar və internet şəbəkələri vasitəsi ilə tirajlanan, yayımlanan abırsızlıq, bayağı nümunələri göz qabağındadır. Bütün bunlar mənəvi həyatımızı fəth etməkdədir. Belə vəziyyətə dözümlülük göstərmək, tolerant olmaq heç də doğru münasibət deyil. Milli özünüifadədən, intellektin mənəvi-əxlaqi gücündən, ruhlandırıcı enerjidən , məsuliyyət və vicdan hissindən xali monstr-mədəniyyətin qarşısı birmənalı olaraq və qəti surətdə alınmalıdır. Milli ideologiya ruhun zəhərlənməsini, çirkabda boğulmasını və sönməsini yox, onun gümrahlaşmasını və alovlanmasını tələb edir. Yalnız, bu halda milli ideologiyanın obyektiv əsaslarını təşkil edən milli maraqların gerçəkləşməsi mümkündür.

**11.** Olduqca vacib bildiyim bir prinsipin – ictimai həyatın təşkili və optimallaşdırılmasında **sosial rekonstruksiya** yolu və vasitələri ilə **daimi yeniləşmə (modernləşmə) prinsipinin** əhəmiyyətini vurğulamaq istərdim. Məhz mütəmadi ictimai rekonstruksiyaların cəmiyyətlərin mövcudluğu və tərəqqisi üçün zəruri, faydalı olduğunu bir sıra böyük öndərlərin, görkəmli dövlət xadimlərinin timsalında (Mustafa Kamal Atatürk, Franklin Ruzvelt, Konrad Adenauer, Den Syaopin, Cavahir-ləl Nehru, Marqaret Tetçer, Auqusto Pinoçet, Li Kuan Yu və b.) bəşər tarixinin özü sübut etmiş və etməkdədir. Bu gün müsbət nümunə qismində adını çəkdiyimiz, ictimai həyatın bütün sahələrində, o cümlədən elm və təhsil, texnika və texnologiya, iqtisadiyyat və sosial rifah, hüquqi dövlət və demokratiya sahələrində danılmaz nailiyyətlər əldə etmiş qabaqcıl ölkələr mümkün olan tərəqqiyə məhz sosial rekonstruksiya-

lar hesabına çatmışlar. Bu ölkələrdə son yüzilliklər boyunca qazanılmış uğurlar əsasən və başlıca olaraq ağıllı, ardıcıl və məqsədyönlü islahatlar sayəsində mümkün olmuşdur. İctimai tərəqqi baxımından öndə gedən ölkələr üçün belə bir paradiqma səciyyəvi olmuşdur: cəmiyyətin təbi-tarixi təkəmül dinamikası həmişə yeniləşmə zərurətini ortaya qoyur ki, bunun da ən məqbul və səmərəli həlli vacib islahatların vaxtında (ləngimədən) reallaşmasını nəzərdə tutan ictimai rekonstruksiyadır. Böyük maddi və mənəvi itkilərə, ziyanlı qarşıdurmalara və insan tələfatına, uzunmüddətli hərcmərcliyə, xaosa yol açan sosial inqlablardan fərqli olaraq ardıcıl islahatlar yolu sosiumun bütün maraqlı tərəf və kateqoriyalarına, konstruktiv yeniləşmə arzusunda olan hər bir sosial-siyasi aktora ümumi prosesdə iştirak və fəallıq imkanı verir, qarşılıqlı anlaşmanı və müştərək fayda götürmək ehtimalını gücləndirir. Beləliklə, bir qayda olaraq ictimai inqilab və partlayışları müşayiət edən xoşagəlməz hadisə və meyllərdən, düşmənçilik, qisasçılıq, nifrət, dağıdıcılıq, qəddarlıq və talançılıq psixozundan, kütləvi məsuliyyətsizliyə və vicdansızlığa, bir sözlə, hər cür vəhşiliyə yol açan durumdan sığortalanmaq mümkün olur. Qırğın-qiyamətlərlə, cəmiyyətin şakkalanması, ifrat parçalanması hesabına başa gələn inqilablar milli birliyə birbaşa ən ağır zərbələr endirdikləri halda, ictimai rekonstruksiyalar, əksinə, həmrəyliyə, milli konsolidasiyaya güclü stimul və təkan verir. Elə bu əsasda da demokratik konsolidasiya üçün daha geniş və real imkanlar yaranır, demokratiyanın, deməli, hüquqi dövlətin norma və prinsipləri etibarlı və sistemli statusda özlərini ifadə edə bilirlər.

**12. Modernləşmənin konstruktivizmlə uzlaşması prinsipi.** Cəmiyyət və dövlətin taleyində xüsusi əhəmiyyətə malik bu prinsip hər bir ictimal rekonstruksiyanın, köklü islahatların mühüm şərti və tələbidir. Onun təmin edilməsi, ilk növbədə, aparılacaq islahatların adekvat elmi-nəzəri təminatından, evristik fəlsəfi nüvəsindən, optmallıq tələblərini ödəyən epistemologiyasından asılıdır. Bunların ödənilməsi, məntiqi olaraq müvafiq işlək və məhsuldar fəaliyyət fəlsəfəsinə, yəni, praksiologiyaya sahiblənmək deməkdir. Hər bir qurucu-reformator, məsələn, Mustafa Kamal Atatürk kimi, bu yüksək səviyyədə özünü göstərən şərt və tələbləri ödəmək qüdrətində olmur. Bu, nadir intellekt, elmlik, kamil şəxsiyyt məsələsidir. Tarixi və sosial zamanın determinə etdiyi və ictimai meydana çıxartdığı alicənab, nəhəng şəxsiyyət məsələsi! Söhbət güclü və iti ağılı, sərrast elmi düşüncəsi, böyük məsuliyyət və vicdan hissi olan, milli ruhdan qidalanıb nəfəs alan, xalqa tükənməz məhəbbəti, vurğunluğu ilə seçilib-fərqlənən, ədalətliliyi və obyektivliyi, həyat tarixçəsi şübhə doğurmayan şəxsiyyətdən!

**13.** Məhz yuxarıda deyilənlər növbəti bir mühüm prinsipin vacibliyini səbəbləndirir – İlahi Qüvvənin yetişdirib ortaya çıxartdığı **tarixi şəxsiyyətin zəruriliyi prinsipi.** Yeni cəmiyyət quruculuğuna, reformalara iddialılar, ambisiyalarını cəmiyyətə sırıyanlar tarixən saysız-hesabsız olub, lakin onların fəaliyyətlərinin nəticədə ölkə tənəzzülə uğrayıb, ictimai sütunlar, institutlar ciddi sarsıntıya məruz qalıb, sanki, öndərlik etdikləri dövlət tarixdən silinmişdir. Belə bir deyim var: gücün çatmayan daşı qaldırmağa çalışma, altında qalarsan! Əfsuslar olsun ki, daşın altında qalan təkcə özü olmur, xalq-cəmiyyət-dövlət də güdaza gedir, kimlərinsə əsassız ambisyalarının qurbanına çevirilir.

Bu prinsip yalnız o vaxt ödənilir ki, qurucu-reformatorun özü mükəmməl ideoloji sistemə malik olur. Özü bu sistemin elmi-nəzəri cəhətdən yaradıcısı, müəllifi kimi fəaliyyət göstərir. Məsələn, Atatürk, Den Syaopin, Li Kuan Yu kimi! Necə deyərlər, quyunun dibinə su tökməklə bulaq-mənbə alınmır. Xatırladım ki, böyük Atatürk öz ideoloji sistemini hazırlayarkən üzərində olan bütün ağır yükə baxmayaraq yalnız Ziya Göyalp kimi dəyərli türk aydınlarının yaradıcılığı ilə kifayətlənməmiş, Hegel, Emil Dürkheym kimi mütəfəkkirlərdən bəhrələnmişdir **(11).**

**14. Dövlət idarəetmə məfkurəsində əksliklər gərginliyindən, affektiv tərəddüdlərdən azad olmaq prinsipi.** Düşünürəm ki, bu prinsipin ödənilməsi də ilk növbədə rəhbər şəxsin və onun aparıcı kadrlarının keyfiyyət göstəricilərindən, elmi-nəzəri və peşəkarlıq səviyyəsindən bilavasitə asılıdır. Dövlətin idarə olunmasında nəzəri qərarsızlıq, qeyri-müəy-

yənlik, davamlı tərəddüdlər qaçılmaz surətdə işlərin gedişinə mənfi təsir göstərir, hətta ağır nəticələrlə sonuclanan hərcmərcliyə, qarşısı alınmaz ictimai xaos vəziyyətinə gətirib çıxara bilər.

İdarəetmə insanlar üçün onların vasitəsi ilə və iştirakı ilə həyata keçirilir. Əgər idarəetmə sisteminin aparıcı "nöqtə"sində qərarsızlıq, davamlı tərəddudlər, barışmaz ideya-siyasi ziddiyyətlər, bir-birini mütləq təkzib edən fəaliyyət əsasları hökmranlıq edirsə deməli, bütövlükdə cəmiyyət, insanlar, sosial qrup və təbəqələr xoşagəlməz durumla üzləşir. Qeyri-müəyyənlik və qeyri-dəqiqlik qarşısında qalan insanlar hətta ciddi diskomfort, psixoloji sarsıntı yaşamalı olur. İdarəetmə üçün müfəssəl ideoloji təminat elə ona görə vacibdir ki, insanların fəaliyyət fəlsəfəsində kövrəklik, şübhə və qərarsızlıq yaradan məqamlar olmasın.

**15. Milli enerjiyə və resurslara qənaət prinsipi.** Maksimum dərəcədə dövlətin və millətin enerjisindən səmərəli istifadə etmək, bu enerjini başqa məqsədlər üçün xərcləməmək, qaşınmayan yeri qaşıyıb qan çıxartmaq vərdişini kənara atmaq, onsuz da bizsiz cərəyan edən prosesin gedişi üçün milli enerjini yanacağa çevirməmək xüsusən köklü və genişmiqyaslı transformasiyalar dövründə olduqca böyük əhəmiyyət kəsb edir. Həm ölkənin öz daxili durumu, həm də şiddətləşən geopolitik vəziyyətin dəyişməsi baxımından həmin prinsip ödənilməzsə ölkə ciddi çoxçeşidli problemlərlə üzləşə bilər.

**16. Vətəndaşlıq və dövlətçilik amillərinin üstün tutulması prinsipi.** Milli quruculuq və dövlətçiliyin inkişafı prosesində etnik və din müxtəlifliyi nəzərə alınmalı, dərindən və ardıcıl olaraq öyrənilməli, dəyərləndirilməli; rəngarəngliyin tarixi və ictimai potensialı Azərbaycanda milli dövlətin qərarlaşmasına və tərəqqisinə yönəlməlidir. Etnik, dini, mədəni rəngarəngliyin daşıyıcısı olan hər bir vətəndaş Azərbaycan dövlətinin inşasında, təkmilləşməsində və inkişafında bərabərhüquqlu iştirakçılığa sahibdir. Bu dövlətin taleyi barədə məsuliyyət də hər bir vətəndaşın, sosial qrup və dini-mədəni icmaların, siyasi və ictimai təşkilatın üzərindədir.

17. Nəhayət, **dövlət hakimiyyətinin vahidliyi prinsipi**. Bu prinsipin zəruriliyini və müstəsna əhəmiyyət daşıdığını yuxarıda göstərdiyim, açıqlamasını verdiyim prinsiplərin ümumi məzmun-mahiyyəti determinə edir. Habelə, onun nə qədər vacib olduğunu bəşər tarixinin özü ayrı-ayrı dövlətlərin timsalında dəfələrlə sübuta yetirmişdir. Dövlət hakimiyyətinin vahidliyi bir ideya, konsepsiya və prinsip kimi ən ciddi təqdimatda Hegel tərəfindən irəli sürülüb və şərh edilmişdir. Heç də təsadüfi deyildir ki, M.K. Atatürk ideoloji baxışlar sistemini müəyyənləşdirərkən ilk növbədə, məhz Hegelin nəzəri irsinə müraciət etmişdir. Onun əsas altı prinsiplərindən biri Hegelin siyasi fəlsəfəsində müfəssəl işlənilmiş etatizm prinsipi olmuşdur. 1937-ci ildə etatizm bir prinsip olaraq Türkiyə Cümhuriyyətinin konstitutsiyasına salınmışdır. Bəzi ultra demokratlar və liberallar indinin özündə də prinsipin daşıdığı mənanı, məzmun-tutumu təhrif edərək onun labüdsuz, hətta ziyanlı olduğunu, guya, avtoritarizmə və totalitarizmə yol açdığını söyləyirlər.

Vurğulamaq istərdim ki, məhz Hegelin təqdimatında mahiyyəti açıqlanmış və Atatürkün siyasi fəaliyyətində xüsusi əhəmiyyətini təsdiqləmiş etatizm, doğru-düzgün rəhbər tutularsa, həm dövlətçiliyin, həm də cəmiyyətin bütün sahələrinin inkişafı baxımından olduqca böyük fayda verə bilər. Habelə, həqiqi hüquqi dövlətin və sinergetik idarəetmənin formalaşması istiqamətində ciddi dəstək olar. Bu prinsipin gücü və qüdrəti istifadə edilən fəaliyyət fəlsəfəsinin epistemiloji əsaslarından, düşüncə sisteminin zəmanəyə adekvatlığından bilavasitə asılıdır.

**İstifadə olunmuş ədəbiyyat**


1. Ətraflı bax.: Ə. F. Abbasov. Dövlətçiliyin inkişafı və siyasi islahatlar: meqatrend müəyyənliyi problemi // Siyasi islahatlar fəlsəfəsi: dövlətçiliyin inkişafı və cəmiyyətin siyasi həyatı. Bakı: "OPTİMİST" nəşriyyatı. 2023, s. 329-370.
2. Abbasov Ə.F. Milli ideologiya birləşdirici məna-simvol kimi // Milli strategiyalar, ideologiyalar və beynəlxalq münasibətlər: tarix, nəzəriyyə və müasir praktikalar. Bakı: "Elm". 2012, s. 182-193.
3. Məsələn, bax.: Ильхам Мамедзаде. Феномен президента: Лидерство Ильхама Алиева составляет эпицентр понимания, объяснения и решения проблем, стоящих перед страной // Газета «Наука», 24 декабря 2021 года, с. 14-15.
4. Elnarə Akimova. Azərbaycanın gücü – İlham Əliyev // "Elm" qəzeti, 24 dekabr 2021-ci il, s. 14.
5. Səttarov M.M. İnsan və cəmiyyət haqqında düşüncələr. Bakı, 2000, 73.
6. Məmmədov K.A. Millət və millətçilik. Bakı, 2008.
7. Фихте И. Г. Сочинения. М., 1995, s. 476.
8. Məsələn, bax: Расул-заде. О пантуранизме. В связи с кавказской проблемой / С предисловием Н. Жордания. Париж: Издание К.Н.К. 1930.
9. Мехтиев Р. Национальная идеология Азербайджана в контексте глобализации // Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı. 2003, s. 205.
10. Dözümlülük prinsipləri haqqında bəyannamə. Bakı. 1999, s. 11.
11. Prof. Dr. İsmet Giritli. Atatürk ve Türkiye'nin Modernleşmesi, Atatürk Araştırma Merkezi Dergisi, Sayı: 37, Cilt: XIII, Mart 1997.


**Rəyçi:** **Fəlsəfə elmləri doktoru, professor Əli Abasov**

**Göndərilib: 30.01.2024** **Qəbul edilib: 05.02.2024**